AZERBAIJAN
# Olimpiya dünyası
www.olimpnews.az
www.olimpiyadunyasi.az
Azərbaycan Milli Olimpiya Komitəsinin qəzeti
№64 (1334), 27 - 30 oktyabr 2017-ci il
Qəzet 2001-ci ildən çıxır.



## Pxençxan-2018 Qış Olimpiya Oyunlarının məşəli alovlandırılıb

Oktyabrın 24-də Pxençxan-2018 Qış Olimpiya Oyunlarının məşəli alovlandırılıb. Mərasim Olimpiya Oyunlarının vətəni olan Yunanıstandakı Olimpiya şəhərində keçirilib. Ənənəyə uyğun olaraq, məşəl buradakı qədim Hera məbədində alovlandırılıb. Məşəli tanınmış yunan aktrisası Katerina Lehou və xoreoqraf Artemis İqnatiou yandırıblar. Məşəlin ilk daşıyıcısı isə 24 yaşlı yunanıstanlı xizəkçi Apostolos Angelis olub.

Pxençxan-2018-in məşəli bir həftə boyunca Yunanıstanın ərazisində 2129 kilometr məsafədə səyahət etdikdən sonra oktyabrın 30-da Afinadakı Akropola çatacaq və bundan sonra Koreya Respublikasına yola salınacaq. Ümumiyyətlə, səyahət zamanı 505 nəfər məşəli daşıyacaq və 36 qarşılama mərasimi keçiriləcək. Pxençxan-2018-in Təşkilat Komitəsi Oyunların məşəlini oktyabrın 31-də Afinadakı "Panafenaik" stadionunda keçiriləcək mərasimdə təhvil alacaq.

Bundan sonra Koreya Respublikasına gətiriləcək məşəlin səyahəti noyabrın 1-dən etibarən 100 gün ərzində 22 vilayəti əhatə edərək fevralın 9-da açılış mərasimində başa çatacaq.

Xatırladaq ki, bəyaz məşəlin uzunluğu 700 millimetrdir. Bu da Pxençxanın dəniz səviyyəsindən 700 metr hündürlükdə olmasını xarakterizə edir. Məşəlin dizaynı koreyalı rəssam Kim Yon Seyə məxsusdur.

Qeyd edək ki, Pxençxan-2018 Qış Olimpiya Oyunları gələn il fevralın 9-25-də keçiriləcək.

## "Böyük Dəbilqə" beynəlxalq turnirində 11 idmançı yarışacaq

Oktyabrın 27-də Birləşmiş Ərəb Əmirliklərinin paytaxtı Əbu-Dabidə cüdo üzrə "Böyük Dəbilqə" beynəlxalq turniri start götürəcək. Üç gün davam edəcək yarışda Azərbaycan milli komandası 11 idmançı ilə təmsil olunacaq. Cüdo yığmamız turnirdə baş məşqçi Fərhad Məmmədovun rəhbərliyi altında yarışacaq.



## Dünya çempionatında uğur qazanan idmançılarımızla görüş keçirilib
Səh. 2

## Avropa Ədalətli Oyunlar Hərəkatının 23-cü Konqresinə yekun vurulub
Səh. 2

## Dörd boksçumuz Avropa çempionatının yarımfinalına yüksəlib

***Türkiyənin Antalya şəhərində gənc boksçular arasında keçirilən Avropa birinciliyində dörddəbir final mərhələsinə yekun vurulub. Mərhələnin sonuncu günündə Azərbaycan millisinin dörd üzvü rinqə çıxıb. Onlardan daha ikisi yarımfinala yüksəlməklə bürünc medalı təmin ediblər.***

Azərbaycan Boks Federasiyasından "Olimpiya dünyası" qəzetinə bildiriblər ki, 49 kq çəki dərəcəsində mübarizə aparan Həsən İbrahimov Nikita Diniyevlə (Ukrayna) qüvvəsini sınayıb. Görüş boksçumuzun 5:0 hesablı qələbəsi ilə başa çatıb. 75 kq çəki dərəcəsində yığmamızın şərəfini qoruyan Amin Kuşkov da döyüşü qələbə ilə bitirib. O, fransalı Moreno Fenderonu 4:1 hesabı ilə məğlub edib.



Beləliklə, yarımfinala yüksələn boksçularımızın sayı dördə çatıb. Bu gün keçiriləcək döyüşlərdə Həsən İbrahimov (49 kq) Sahil Alahverdovı ilə (Gürcüstan), Amin Kuşkov (75 kq) İvan Papakinlə (Ukrayna), Surət Qarayev (81 kq) Ruslan Kolesnikovla (Rusiya) və Məhəmməd Abdullayev (+91 kq) Yosip Biletiçlə (Xorvatiya) qarşılaşacaq.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU

*"Uşaq və gənclərin fiziki və mənəvi inkişafı"*

## Bakı Dövlət Universiteti: İdmançı tələbələri ilə də fəxr edən böyük elm məbədi
Səh. 3

## Ölkəmizdə gənc və perspektivli idmançı nəsli yetişir
Səh. 2

# Olimpizm

## Namizədlik kampaniyası 2 mərhələdə keçiriləcək

Beynəlxalq Olimpiya Komitəsi (BOK) elan edib ki, Olimpiada-2026 Qış Olimpiya Oyunlarına ev sahibliyi üçün ərizə kampaniyası iki mərhələdə həyata keçiriləcək. Bu barədə BOK-un rəsmi saytında məlumat verilir. Məlumatda bildirilir ki, bu, milli Olimpiya komitələrinə (MOK) və təşkilatçı şəhərlərə iqtisadi cəhətdən mükəmməl Olimpiya Oyunları təşkil etmək və qarşıya qoyulan məqsədə çatmaq yeni imkanlar yaradacaq.

Yeni qaydaya görə, namizədlik kampaniyası iki mərhələdən ibarət olacaq. 1-ci mərhələ gələn ilin oktyabrına qədər olan dövrü əhatə edəcək. Bu müddət ərzində ev sahibliyində marağı olan şəhərlər və milli Olimpiya komitələri (MOK) Beynəlxalq Olimpiya Komitəsi ilə əməkdaşlıq çərçivəsində qarşıya qoyulan tələb və imkanları nəzərdən keçirəcək. BOK iddialı şəhərlərə kömək məqsədilə onları öz hesabına texniki komanda ilə təmin edəcək.

BOK-un 2018-ci ilin oktyabr ayında keçiriləcək sessiyasında İcraiyyə Komitəsinin tövsiyəsi ilə namizədliyə iddialı şəhərlərdən bir neçəsi 2-ci mərhələdə iştirak etmək üçün dəvət alacaqlar. Olimpiada-2026-nın təşkili və keçirilməsi ilə bağlı müqavilə gələn ilin iyul ayında ictimaiyyətə açıqlanacaq. BOK Olimpiada-2026-nın ev sahibinin adını 2019-cu ilin iyul ayında İtaliyanın Milan şəhərində keçiriləcək 132-ci sessiyasında elan edəcək. Qeyd edək ki, 2026-cı ildə keçiriləcək Qış Olimpiya Oyunlarına ev sahibliyi uğrunda Sion (İsveçrə), Alma-Atı (Qazaxıstan), Sapporo (Yaponiya), Kalqari (Kanada) və Ərzurum (Türkiyə) şəhərləri mübarizə aparır.

## BOK Olimpiada-2026-nın ev sahibinə 925 milyon dollar vəsait ödəyəcək

Beynəlxalq Olimpiya Komitəsi (BOK) Olimpiada-2026-ya ev sahibliyi edəcək şəhərə 925 milyon dollar vəsait ödəyəcək. Bu barədə BOK-un rəsmi saytında xəbər verilir.

925 milyon dollar vəsaitin böyük hissəsi televiziya yayım hüquqlarından əldə ediləcək. BOK Olimpiya Oyunlarına təşkilatçılıq edən şəhərləri dəstəkləmək məqsədi ilə "Games Management-2020" adlı xüsusi proqram həyata keçirir. Proqramın həyata keçirilməsində məqsəd olimpiadanın təşkili və keçirilməsində təşkilatçılara köməklik göstərmək, eləcə də yarışların keçirilməsi üçün xərclərin azaldılması ilə bağlı məsləhətlər verməkdir.

Olimpiada-2026-ya ev sahibliyi üçün namizədlik ərizəsinin qəbuluna sentyabr ayının sonlarından başlanılıb. Ərizələrin son qəbul tarixi 2018-ci ilin martın 31-dək müəyyən olunub.

## WADA Çində yoxlamaya start verib

Ümumdünya Antidopinq Agentliyi (WADA) Çində dopinqlə bağlı geniş həcmdə yoxlamalara start verib. Beynəlxalq qurumu buna sövq edən Almaniyanın ARD televiziya kanalının efirə verdiyi növbəti film olub. Filmdə Çində dopinqdən istifadənin dövlət səviyyəsi sistemində aparıldığı iddia edilir. WADA-nın rəsmi saytında bildirilir ki, filmdə Çin Olimpiya yığmasının 1980-ci və 1990-cı illərdə kütləvi şəkildə dopinqdən istifadə etməsi barədə faktlar vardır.

Filmdə Çin Olimpiya yığmasının həkimi Ksyu İnsyan idmançıların hamısının dopinqdən istifadə etdiyini və bunun dövlət səviyyəsində aparıldığını deyir: "Bu sistemə 10 mindən artıq insan cəlb edilmişdi. Çinli idmançıların 80-90-cı illərdə beynəlxalq yarışlarda əldə etdikləri medallar geri alınmalıdır". Həkimin sözlərinə görə, Çində bütün idman növlərində dopinqdən istifadə edilirmiş. İdmançı dopinqdən imtina etdiyi təqdirdə yığmadan qovulurmuş. Acınacaqlısı da odur ki, yeniyetmə idmançılar da buna təhrik edilib.

Ksyu İnsyan ailəsi ilə birlikdə 2015-ci ildə Çini tərk edərək Almaniyaya köçüb. Hazırda həmin ölkədə yaşayır.

## Sərbəst güləşçilər Rusiyada yarışacaqlar

## Tenerifedə fərqlənənlər Buenos-Ayresə vəsiqə əldə edəcəklər

## Respublika yarışlarının dördüncü seçmə mərhələsi başlayır

## Hövsanda paytaxt birinciliyi

Səh. 2

## Gimnastika

# Ölkəmizdə gənc və perspektivli idmançı nəsli yetişir



ilk debütü olub. Sonra gənc gimnastımız bu qəbildən olan yarışlarda uğurlarını biri-birinin ardınca davam etdirib. Bu ilin sentyabr ayında Portuqaliyanın Lole şəhərində qızıl, oktyabr ayında isə Valyadoliddə (İspaniya) isə bürünc medal qazanıb. Gənc gimnastımızın ən böyük arzusu Avropa və dünya çempionu olmaq, dünya rekordçusu tituluna sahib olmaqdır.

***Respublikamızda populyarlığı ilə seçilən, uşaq və gənclər tərəfindən sevilən idman növlərindən biri də gimnastikadır. Son illər Bakıda, eləcə də bölgələrdə fəaliyyət göstərən idman zallarında gimnastikaya maraq xeyli artıb. Azərbaycan Gimnastika Federasiyasının məqsədyönlü və səmərəli fəaliyyəti sayəsində gimnastika özünün yüksək inkişaf dövrünü yaşayır. Gənc və perspektivli idmançıların formalaşdırılmasını bu sahədə əldə olunan uğurlardan biri kimi dəyərləndirmək olar.***

***"Olimpiya dünyası" qəzeti həmişə öz səhifələrində gənc və perspektivli idmançılara geniş yer ayırır. Qəzetimizin budəfəki qonağı gimnastika üzrə Azərbaycan yığmasının üzvü, tamblinqçi Mixail Malkindir. Bizimlə söhbətdə idmançının məşqçisi, batut və tamblinq üzrə beynəlxalq dərəcəli hakim Adil Hüseynzadə də iştirak edirdi.***

### "Nənə, nə yaxşı ki, məni idmana apardın"

Mixail Malkin 1996-cı ildə iyulun 30-da Bakıda, Biləcəri qəsəbəsində anadan olub. Orta təhsilini, əvvəlcə, 299 saylı orta məktəbdə, sonra isə Respublika Olimpiya İdman Liseyində (ROİL) davam etdirib. Gənc idmançı gimnastika ilə 5 yaşından məşğul olmağa başlayıb. Azərbaycan Bədən Tərbiyəsi və İdman Akademiyasının (ADBTİA) I kurs tələbəsi olan 21 yaşlı gimnast idmanın onun həyatında önəmli rolundan böyük məmnunluqla danışır: "Uşaqlıqda çox dəcəl olmuşam. Evdə, həyətdə daim şuluqluq edirdim. Bir gün nənəm əlimdən tutaraq məni zala apardı. Məni məşqçinin üstünə ataraq dedi: "Bunu verirəm sizə, neynirsiniz eləyin". Düşünürəm ki, nənəm əlimdən tutub idmana aparmasaydı, taleyim başqa cür olacaqdı. Hər dəfə idman zalında, beynəlxalq yarışda əldə etdiyim uğurdan sonra nənəmin əllərindən öpür və deyirəm: "Nənə, nə yaxşı ki, məni idmana apardın". Bizi nənəm saxlayıb, onun 71 yaşı var".

### "Bayrağımız qaldırılanda, himnimiz səslənəndə ürəyim dağa dönür"

Mixail Malkin milliyətcə rus olsa da, Azərbaycan dilində çox sərbəst danışır. Bu da onun doğulduğu torpağa məhəbbətindən irəli gəlir: "Mən Azərbaycanda doğulmuşam, burada böyümüşəm. Milliyətcə rus olsam da, azərbaycan adət-ənənələrinə uyğun şəkildə böyümüşəm, tərbiyə olunmuşam. Mən vətənimi, onun dilini çox sevirəm. Beynəlxalq yarışlarda Azərbaycanı təmsil etməkdən qürur duyuram. Bayrağımız qaldırılanda, himnimiz səslənəndə ürəyim dağa dönür. Torpaqlarımızın 20 faizi Ermənistan Silahlı Qüvvələri tərəfindən işğal edilib. Hər zaman vətənin müdafiəsində dayanmağa hazıram, bu, hər bir Azərbaycan gəncinin müqəddəs borcudur".

"Ocaq Sport" İdman Klubu İctimai Birliyinin təmsilçisi olan gimnastımız ilk dəfə beynəlxalq yarışda 2008-ci ildə iştirak edib. Rusiyanın Krasnodar şəhərində keçirilən akrobatika yarışlarında federasiyanın, məşqçi heyətinin ümidini doğruldaraq bürünc medala layiq görülüb. Növbəti il Rusiyanın Stavropol şəhərində yenə həmin növdə 3-cü olmağı bacarıb. Gimnastımız 2011-ci və 2012-ci illərdə tamblinq üzrə yarışlarda Azərbaycan çempionu adını alıb. 2012 və 2013-cü illərdə isə Ukraynada təşkil olunan beynəlxalq turnirin qalibi olub. Mixail Malkin 2011-ci ildə Birmingemdə (İngiltərə) keçirilən Dünya Yaş Qrupları Yarışlarında uğurla çıxış edərək finala düşüb. 2013-cü ildə Sofiya (Bolqarıstan) şəhərində təşkil olunan eyniadlı yarışlarda da adını finalçılar siyahısına yazdırmağı bacarıb. Hazırda tamblinq üzrə öz yaşıdları arasında dünya reytinqində 1-ci yerdə qərarlaşıb. İstedadlı gimnastımız bu ilin fevralında Bakıda təşkil olunan batut gimnastikası üzrə Dünya kuboku yarışlarında uğurlu çıxış nümayiş etdirib. Azərbaycan gimnastlarının dünyanın 15 ölkəsindən 82 nəfər batutçu və tamblinqçinin iştirak etdiyi yarışda əldə etdiyi 3 gümüş medaldan biri məhz Mixail Malkinin payına düşüb. Bu, həm də, onun Dünya kuboku yarışlarında

### "İstedadlı idmançılarla işləmək hər bir məşqçinin arzusudur"

Məşqçi idmançının həyatında və karyerasında önəmli və əsas simalardan biridir. Mixail Malkin Adil müəllimlə işləyənə qədər bir neçə məşqçi dəyişib. Dediyinə görə, onunla çoxdan məşğul olsaydı, indi uğurlarının sayı-hesabı yox idi. Qeyd edək ki, Adil Hüseynzadə gimnastika sahəsində təcrübəli mütəxəssislərdən biridir. Uzun müddət Cənubi Afrikada məşqçilik fəaliyyəti ilə məşğul olub.

Adil müəllim bizimlə söhbətində idmançı və məşqçilər üçün yaradılan şəratə görə AGF-nın rəhbərliyinə təşəkkürünü bildirdi və məşqçilik peşəsinin məsuliyyətindən danışdı: "Bizə yaradılan şəraitə görə Azərbaycan Gimnastika Federasiyasının rəhbərliyinə, bütün heyətə minnətdarıq. Federasiyanın səmərəli fəaliyyəti nəticəsində bu gün ölkə gimnastikası öz inkişaf dövrünü yaşayır. Bu gün Azərbaycanda perspektivli gimnastlar nəsli yetişib. İdman gimnastikadan başlayır. İstedadlı, gələcəyi olan idmançılarla işləmək hər bir məşqçinin arzusudur. Məşqçi var ki, qabiliyyətli yetirməsinə dəstək olmaqla onu zirvələrə qaldırır, məşqçi də var ki, onu ruhdan salır. Məşqçi həm də psixoloqdur. O, yetirməsinin dostu, yaxın sirdaşı olmalıdır. Fiziki hazırlıq bir yana qalsın, psixoloji hazırlıq uğur qazanmaq üçün mühüm şərtdir. Mixail Malkinə gəlincə, onun əzmkarlıq ruhiyyəsi çox yüksəkdir və iradəlidir. Bu, mühüm amillərdən biridir. Biz onunla cəmi 3 ilə yaxındır ki, məşğul oluruq. Qısa müddət ərzində yetirməmin uğurlar qazanması məni sevindirir. Mixail Malkin istedadlı gimnastdır və öz üzərində çox işləyir. Mən onun gələcəyinə inanıram. Hələ Cənubi Afrikada işləyəndə onun məşqlərinə baxırdım. İstedadlı olsa da, texnikası xoşuma gəlmirdi. Bakıya qayıtdıqdan sonra onunla işləməyə qərar verdim. Təbii ki, hər hansı dili öyrənmək və bu dildə yaxşı danışmaq üçün, əvvəlcə, əlifbanı bilməlisən. Biz də Mişa ilə sadə ayaq hərəkətlərindən başladıq. Eyni akrobatik hərəkəti dəfələrlə, təkrar-təkrar məşq edirdik. Təsəvvür edin ki, orta məktəbdə oxuyan 10-cu sinif şagirdinə 3-cü sinfin dərsini keçməli olursan. Beləliklə, o, texniki və fiziki cəhətdən formaya düşmüş oldu. Psixoloji hazırlıq da yerində olandan sonra idmançıya ancaq qalib gəlmək qalır. Qeyd edim ki, tamblinqdə, başqa gimnastika növlərinə nisbətən zədə riski daha çoxdur. Bu idman növündə adi bir səhv hər şeyi məhv edə bilər. Burada 8 hərəkəti 3-4 saniyə ərzində yerinə yetirməlisən. Başqa sözlə, beyin kompüter kimi işləməli, bədən isə hərəkətləri tez və səhvsiz yerinə yetirməlidir.".

İnsan həyatda uğur qazanmaq üçün çox işləməli, əziyyət çəkməlidir. İdmanda da belədir. İşini taleyə, şansa buraxanlar həmişə əliboş qalırlar. Əgər sən əziyyət çəkmək, məşq etmək yerinə rahatlığı seçirsənsə, heç vaxt uğur qazana bilməyəcəksən. Çünki zəhmət, məsuliyyət olan yerdə uğur da var, medal da.

***Səadət Hakıyeva***

## Ədalətli Oyunlar

***Oktyabrın 24-26-da İsrailin Hayfa şəhərində Avropa Ədalətli Oyunlar Hərəkatının (AƏOH) 23-cü Konqresinə start verilib. Tədbirdə AƏOH-ya üzv olan müxtəlif ölkələrdən olan idman mütəxəssisləri, idman sahəsində fəaliyyət göstərən nümayəndələr iştirak ediblər. Konqresdə ölkəmizi Milli Olimpiya Komitəsinin vitse-prezidenti, Azərbaycan Ədalətli Oyunlar Komissiyasının (AzƏOK) sədri Xəzər İsayev təmsil edib.***



# Avropa Ədalətli Oyunlar Hərəkatının 23-cü Konqresinə yekun vurulub

Tədbirin keçirilməsində məqsəd idmanda və ümumiyyətlə, cəmiyyətdə ümumbəşəri dəyərlərin, etik normaların qorunması istiqamətində maarifləndirici işlərin aparılması, idman yarışları zamanı müxtəlif təsirlər altında meydana gələn neqativ hallara qarşı mübarizənin gücləndirilməsidir. Konqresin əsas mövzusu "İdman barışıq vasitəsidir" adlanır. Konqres zamanı mütəxəssislər qeyd olunan mövzu ətrafında məruzələrlə çıxış ediblər.

Tədbirin ilk günü keçirilən açılış mərasimində MOK-un vitse-prezidenti Xəzər İsayev Hayfa şəhərinin meri Yona Yahava Azərbaycan Milli Olimpiya Komitəsinin xatirə hədiyyəsini təqdim edib. AzƏOK sədri Azərbaycan dövləti tərəfindən Ədalətli Oyunlar Hərəkatının inkişafına verilən dəstəkdən, bu sahədə görülən işlərdən danışıb. O, Avropa qurumu ilə əlaqələrin gələcəkdə də uğurla davam etdiriləcəyinə əminliyini bildirib.

## Cüdo



# Dünya çempionatında uğur qazanan idmançılarımızla görüş keçirilib

***Oktyabrın 25-də Gənclər və İdman Nazirliyində (GİN) Xorvatiyanın paytaxtı Zaqrebdə təşkil olunan gənclər arasında cüdo üzrə dünya çempionatında uğurla çıxış edən Azərbaycan yığma komandasının üzvləri ilə görüş keçirilib.***

Görüşdə GİN-in idman şöbəsinin müdiri Fərid Mansurov gənc cüdoçularımızın qazandıqları nailiyyətləri yüksək qiymətləndirərək deyib: "İdmanın bu növü üzrə atletlərimizin ardıcıl və parlaq qələbələr qazanması Azərbaycan Cüdo Federasiyasının (ACF) hədəfləri dəqiq müəyyənləşdirərək düzgün fəaliyyət istiqaməti seçdiyini göstərir. Zaqrebdə keçirilən dünya birinciliyində gənc cüdoçularımız 2 qızıl, 2 gümüş və 1 bürünc medal qazanıblar. Bu, böyük nəticədir. Uğur qazanan idmançılarımızı və ACF-in kollektivini təbrik edirəm. Gənclər arasında Avropa çempionatında da milli komandamız birinci yeri tutub. Gələn il dünya çempionatı Bakıda təşkil olunacaq. İnanıram ki, həmin çempionatda da həm medalların sayına, həm də yüksək təşkilatçılığımızla fərqlənəcəyik".

ACF-in baş katibi Elmar Babanlı yığma komandanın göstərilən etimadı doğrultduğunu bildirib. Qeyd edib ki, bu nəticə həm medalların sayına, həm də əyarına görə bir ilkdir. Oğlanların yarışında Azərbaycan yığma komandası birinci yeri tutub. Bu, tarixi qələbədir.

Baş katib qeyd edib ki, dekabrın 21-22-də keçiriləcək Azərbaycan çempionatında H.Heydərov və N.Qurbanlı istisna olmaqla, digər idmançılar gənclər arasında mübarizəni davam etdirəcəklər.

Gənclərdən ibarət yığma komandanın baş məşqçisi Elçin İsmayılov qeyd edib ki, dünya birinciliyində cüdoçularımız püşkatma nəticəsində ən güclü idmançılarla qarşılaşıblar. Buna baxmayaraq, cüdoçularımız uğurlu nəticə əldə ediblər. Qazanılan uğurlar Azərbaycan cüdosunun inkişafından xəbər verir.

Çempionatda qızıl medal qazanan Hidayət Heydərov, gümüş medala sahibləri Natiq Qurbanlı və Kəramət Hüseynov da idmançılarımıza yaradılan şəraitə görə dövlətimizin başçısına və federasiya rəhbərliyinə minnətdarlıqlarını bildiriblər.

Sonra jurnalistlərin sualları cavablandırılıb.

Xatırladaq ki, gənclər arasında dünya çempionatında Hidayət Heydərov (73 kq) və Zelim Kostiyev (100 kq) qızıl, Natiq Qurbanlı (55 kq) və Kəramət Hüseynov (60 kq) gümüş, Nəzakət Əzizova (52 kq) isə bürünc medal qazanıblar.

## Xəbərlər

### Sərbəst güləşçilər Rusiyada yarışacaqlar

Oktyabr ayının 28-29-da Rusiya Federasiyasının Nefteyuqansk şəhərində Vladimir Semyonovun şərəfinə "Yuqra Kuboku" adlı beynəlxalq turnir keçiriləcək. Artıq 14-cü dəfə keçirilən bu turnirdə sərbəst güləş üzrə böyüklərdən ibarət yığmamızın üzvləri də qüvvələrini sınayacaqlar.

Məşqçilər Vahid Məmmədov və Qılman Novruzovun rəhbərliyi altında medal uğrunda 7 güləşçimiz mübarizə aparacaq.

Görüşlərin idarə edilməsində ölkəmizi beynəlxalq dərəcəli hakim Qərib Əliyev təmsil edəcək.

### Tenerifedə fərqlənənlər Buenos-Ayresə vəsiqə əldə edəcəklər

Yeniyetmə və gənclərdən ibarət karate üzrə Azərbaycanın milli komandasının üzvləri İspaniyada keçiriləcək dünya çempionatında mübarizə aparacaqlar.

Oktyabrın 25-28-də yeniyetmə və gənc karateçilər arasında Tenerifedə təşkil ediləcək yarışda 12 idmançımız iştirak edəcək.

Azərbaycan Milli Karate Federasiyasının prezidenti Yaşar Bəşirovun rəhbərlik etdiyi nümayəndə heyətində 18 yaşadək yeniyetmə və gənclərdən ibarət komandanın baş məşqçisi Anar Allahverdiyev və beynəlxalq hakim Cahangir Babayev də yer alıb.

İki ildən bir keçirilən dünya çempionatında 109 ölkədən 1710 karateçi yarışacaq. Bu yarış, həmçinin gələn il Argentinanın Buenos-Ayres şəhərində keçiriləcək yeniyetmələrin Olimpiya Oyunlarına lisenziya verən üç seçmə turnirdən ikincisidir.

Dünya Karate Federasiyası texniki komitəsinin üzvü və Avropa Karate Federasiyasının idarə heyətinin üzvü Y.Bəşirov yarışdan əvvəl beynəlxalq təşkilatın konqresində iştirak edəcək.

### Respublika yarışlarının dördüncü seçmə mərhələsi başlayır

Oktyabrın 28-də Azərbaycanın bütün bölgələrini əhatə edən ağırlıqqaldırma üzrə respublika yarışlarının dördüncü seçmə mərhələsinə start veriləcək.

Yarışın keçirilməsində məqsəd regionlarda atletlərin hazırlıq durumlarının yoxlanılması, ehtiyat qüvvənin nəzərdən keçirilməsi, güclü idmançıların seçilməsi, ağırlıqqaldırma idman növünün şəhər, rayon, qəsəbə və kəndlərdə təbliği və inkişafı, idmançılar və məşqçilər arasında dostluq əlaqələrinin möhkəmləndirilməsi, idmançıların ustalıq səviyyəsinin artırılması və təkmilləşdirilməsidir.

Yarışlar Xırdalan, Lənkəran və Samux şəhərlərində keçiriləcək. Oktyabrın 28-də Xırdalanda keçiriləcək yarışda Sumqayıt, Xırdalan, Qobustan, Şamaxı, İsmayıllı və Bakıdan olan atletlər mübarizəyə qoşulacaqlar. Noyabrın 1-2-də Lənkəranda Cəlilabad, Neftçala, Lənkəran, Lerik və Astaranı, 4-5-də isə Samuxda Goranboy, Gəncə, Yevlax, Samux, Qazax, Şəki və Qaxı təmsil edən atletlər körpücük üzərinə çıxacaqlar.

Yarış şəxsi xarakter daşıyır və iştiraka yalnız texniki cəhətdən hazırlıqlı, yaşı ən azı 10 olan idmançılar buraxılacaqlar.

Zona turnirində 1999-2007-ci il və daha böyük təvəllüdlü idmançılar müvafiq yaş qruplarında mübarizə aparacaqlar və qaliblər Sinkleyr cədvəli üzrə müəyyən ediləcək.

### Hövsanda paytaxt birinciliyi

Bakı Şəhər Gənclər və İdman Baş İdarəsi (BŞGİBİ) tərəfindən Hövsan Olimpiya İdman Mərkəzində gənclər arasında sambo üzrə açıq paytaxt birinciliyi keçirilib. Yarışda 107 idmançı birincilik uğrunda mübarizə aparıb. Gərgin idman mübarizəsi şəraitində keçən birincilikdə Nicat Məmmədov (48 kq), Nicat Xankişiyev (52 kq), Ziya Əliyev (62 kq), Şirzad Sayadzadə (68 kq), Hikmət Əkbərov (74 kq), Əli Nəzərli (82 kq), Hüseynəli İskəndərov (90 kq), Elvin Abbasov (100 kq) və Bayram Əhmədov (+100 kq) fəxri kürsünün ən yüksək pilləsinə qalxıblar.

Mükafatçılar Baş İdarə tərəfindən müvafiq dərəcəli diplomlar və xatirə hədiyyələri ilə təltif olunublar.

### Azərbaycan Kuboku turnirinə start verilib

Oktyabrın 24-də Gənclər və İdman Nazirliyinin, Azərbaycan Stolüstü Tennis Federasiyasının təşkilatçılığı ilə gənclər və yeniyetmələr arasında stolüstü tennis üzrə Azərbaycan kuboku turnirinə start verilib.

Şəxsi və komanda xarakterli yarışlarda Bakı, Sumqayıt, Şabran, Gədəbəy və Şəkidən ümumilikdə 100-ə yaxın idmançı iştirak edir. Turnirdə yeniyetmələrdən ibarət 19 və gənclərin təmsil olunduğu 8 komanda mübarizəyə qoşulub. Bu gün yarışa yekun vurulacaq.

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU**

*"Uşaq və gənclərin fiziki və mənəvi inkişafı"*

# Bakı Dövlət Universiteti: İdmançı tələbələri ilə də fəxr edən böyük elm məbədi

***1919-cu il sentyabr ayının 1-də Azərbaycan Xalq Cümhuriyyətinin parlamenti tərəfindən təsis edilən Bakı Dövlət Universiteti (BDU) Azərbaycan elminin, təhsilinin və ictimai həyatının mayakıdır. Bu böyük təhsil məbədinin tələbəsi olan minlərlə insan cəmiyyətdə mühüm mövqeyə və rola malikdir. Necə deyərlər, Bakı Dövlət Universitetinin tələbə və müəllim kontingenti örnəyə çevrilib.***



Universitetdə hər bir sahə üzrə yetişən yüksək ixtisaslı və istedadlı tələbələr var. Həmin sahələrdən biri də bədən tərbiyəsi və idmandır. Adı çəkilən təhsil ocağında bu sahə üzrə fakültə olmasa da, bütün fakültələrdə idmanı sevən tələbələr təhsil alır. BDU-nun məzunları arasında bu gün Azərbaycanı beynəlxalq miqyaslı yarışlarda uğurla təmsil edən, üçrəngli bayrağımızı zirvələrdə qürurla dalğalandıran idmançılara da rast gəlmək olur. Belə ki, dünya və Avropa çempionu, Milli Olimpiya Komitəsinin vitse-prezidenti Xəzər İsayev, veteran futbolçu Ələkbər Məmmədov, futzal üzrə yığma komandamızın üzvü Vitali Borisov, sambo üzrə 9 qat dünya çempionu Ceyhun Məmmədov, yunan-Roma güləşi üzrə üç qat dünya çempionu Məhyəddin Allahverdiyev, Olimpiya çempionu, Gənclər və İdman Nazirliyinin idman şöbəsinin müdiri Fərid Mansurov, tanınmış şahmatçılar Teymur Rəcəbov, Şəhriyar Məmmədyarov, Aynur Sofiyeva, karate üzrə IV İslam Həmrəyliyi Oyunlarının çempionları Ayxan Mamayev, Fəridə Abıyeva, muay-tay üzrə dünya çempionu Aydın Məmmədov Bakı Dövlət Universitetetinin fəxr edəcəyi tələbələrdən sayılırlar. Elm məbədinin tarixinə nəzər salarkən görürük ki, universitetdə Bədən Tərbiyəsi və İdman kafedrasının yaranması 1934-cü ilə təsadüf edir. Yarandığı gündən kafedranın məqsədi tələbələrdə yüksək mənəvi, iradi və fiziki keyfiyyətlər tərbiyə etmək, milli mənəvi dəyərlər aşılamaq, onları əməyə və vətəni müdafiəyə hazırlamaq, müasir mütəxəssisi bir şəxsiyyət kimi formalaşdırmaqdan ibarət olub. Lakin bir müddət əvvəl bütün təhsil ocaqlarında olduğu kimi Bakı Dövlət Universitetində də kafedralar bağlanaraq, klubla əvəzlənib.

Yarandığı gündən bir çox tanınmış idman mütəxəssislərinin rəhbərlik etdiyi kafedra hazırda klub kimi fəaliyyət göstərir. Bu şərəfli işin davam etdirilməsi isə indi Azərbaycanın əməkdar məşqçisi, respublikanın fəxri bədən tərbiyəsi və idman işçisi Akif Atakişiyevə həvalə olunub. Elə bu universitetin məzunu olmuş Akif müəllim 1991-ci ildən bu günə kimi bu məsuliyyəti öz üzərinə götürüb.

Azərbaycan Respublikasının idman mütəxəssislərinə fəxri adların verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamına əsasən Azərbaycanda bədən tərbiyəsi və idmanın inkişafında xidmətlərinə görə BDU-nun Bədən tərbiyəsi və idman kafedrasının müdiri dosent Akif Atakişiyev "Əməkdar müəllim" adına layiq görülüb.

Qeyd edək ki, Akif Atakişiyev 1972-ci ildən müəllim, 1991-ci ildən isə kafedra müdiri vəzifəsində çalışıb.

Ali məktəblərdə idmana, bədən tərbiyəsinə göstərilən diqqət və qayğıdan bəhs edəcək bu yazını Akif müəllimin fikirləri, onun təcrübəsi əsasında bir araya gətirmək istədik. Müxtəlif vaxtlarda bu və ya digər mövzularda bir neçə məqalə və elmi metodik vəsaitin müəllifi olan Akif Atakişiyevlə söhbət etdik.

## "Bakı Dövlət Universitetində idmanın inkişafı həmişə diqqət mərkəzində olub"

Akif müəllim tələbələr arasında dözümlülüyün və sağlamlığın qorunmasında idmanın danılmaz rolu olduğunu bildirdi. "Mən dəfələrlə öz çıxışlarımda və tələbələrlə söhbətimdə idmanın faydaları barəsində danışmışam. Fəaliyyətim ərzində xalqımızın məişətində mühüm yer tutan "Milli xalq idman oyunları" barədə məqalələr, Respublika elmi-praktik konfransında "İdmançıların dözümlüyünün artırılması yolları" mövzusunda keçirilən konfransda iştirak etmişəm. Bundan başqa "Təhsil, Mədəniyyət, İncəsənət" adlı "bilgi" dərgisində, "Fiziki tərbiyənin bəzi məsələləri" barədə məqalələrlə çıxışlar edərək, bədən tərbiyəsi dərslərinin keçirilməsi üzrə proqramların hazırlanmasında bir çox işlər görmüşəm.

İdman yaşından və cinsindən asılı olmayaraq hər bir insanın özü üçün lazımlı bir məşğuliyyət vasitəsidir. Bu gün minlərlə tələbənin təhsil aldığı Bakı Dövlət Universitetində də idman ön planda dayanır. Düzdür, tələbə üçün ilk növbədə təhsil çox əhəmiyyətlidir. Lakin idman və fiziki sağlamlıq da hər bir insan üçün çox vacibdir. Universitetimizdə tələbələrimiz yüksək təhsillə yanaşı, idmanla məşğul olur və sağlamlıqlarının qeydinə qalırlar. Elə universitet rəhbərliyinin qarşıya qoyulan əsas məqsədlərindən biri də fiziki cəhətdən sağlam nəslin yetişdirilməsidir. Bu baxımdan Bakı Dövlət Universitetində idmanın inkişafı həmişə diqqət mərkəzində olub. Təhsil ocağı ölkə rəhbərinin Olimpiya Hərəkatı sahəsindəki siyasətini daim dəstəkləyib və ali məktəblər içərisində beynəlxalq standartlara cavab verən ilk idman kompleksi də BDU-da inşa edilib. Gənc nəslin mənəvi cəhətdən zəngin, fiziki cəhətdən sağlam böyüməsində təhsil ocağının bədən tərbiyəsi və idman kafedrasının rolu danılmazdır.

1934-cü ildə yaradılmış kafedranın əsas məqsədi tələbələrdə yüksək mənəvi, iradi və fiziki keyfiyyətlər tərbiyə etməklə yanaşı, onları vətənin müdafiəsinə hazırlamaq, şəxsiyyət kimi formalaşdırmaqdır. Bütün sahələrin mütəxəssisləri üçün tədris edilən bu fənn ilk növbədə fiziki hazırlığın profilləşməsini təmin edir, həm hərtərəfli inkişaf etmiş şəxsiyyətin formalaşmasında, onun sağlamlığının möhkəmləndirilməsində əsas amil rolunu oynayır, həm də tələbələrin peşəyönümlü fiziki hazırlığı prosesində nikbin əhval-ruhiyyənin yaranmasında mühüm vasitələrdən birinə çevrilir".

## "Biz məzunlarımızla fəxr edirik"

Məlum olduğu kimi, artıq universitetlərdə fəaliyyət göstərən kafedralar öz işini klub adı altında davam etdirir. Ali təhsil ocağının nəzdindəki klublar tələbələr arasında asudə vaxtın səmərəli təşkili istiqamətində böyük işlər görür. Burada idmanın müxtəlif növləri üzrə məşqlər keçirilir. Ayrı-ayrı bölmələrdə məşğul olan yeniyetmələr Təhsil, Gənclər və İdman nazirliklərinin keçirdikləri universiada və birinciliklərdə çıxış edərək mükafatalayiq yerlər tuturlar. Ali təhsil ocağında universitet əməkdaşlarının istirahətlərinin təşkili istiqamətində də xeyli işlər həyata keçirilib. Akif müəllim bildirdi ki, BDU-nun tələbələri müxtəlif illərdə nəinki universiteti, habelə respublikamızı keçmiş Sovetlər İttifaqında, Avropa, dünya çempionatlarında, Olimpiya Oyunlarında layiqincə təmsil ediblər.

"Bakı Dövlət Universiteti bir çox ziyalıların yetişməsində əvəzsiz rola malikdir. Bu gün fəxrlə qeyd edə bilərəm ki, bir çox məzunlarımız hazırda elm və müxtəlif peşə sahəsində, həmçinin idman sahəsində böyük uğurlar əldə ediblər. Biz məzunlarımızla fəxr edirik. Mən hər zaman tələbələrimizə həmin məzunları nümunə kimi göstərirəm. Sevindirici haldır ki, tələbələrimiz hər il təşkil olunan müxtəlif yarışlarda uğurla təmsil olunurlar. Qeyd edim ki, universitetin komandaları təkcə ölkədaxili deyil, həmçinin bir sıra beynəlxalq yarışlarda da uğurla çıxış edirlər. Xəzəryanı ölkə universitetlərinin II, III və IV beynəlxalq tələbə Oyunlarında, 2002-ci ildə Qazaxıstan Respublikasının Atrau şəhərində keçirilən yarışda qızlardan ibarət basketbol komandamız ikinci, 2004-cü ildə İran İslam Respublikasının Rəşt şəhərində isə üçüncü yerə layiq görülüblər. 2005-ci ildə Türkiyə Respublikasının "Kırık Kale" Universitetində keçirilən beynəlxalq turnirdə həndbol və güləş üzrə komandalarımız birinci və ikinci yerlərə sahib çıxıblar.



2008-ci ildə Təhsil Nazirliyi respublika Bədən Tərbiyəsi və İdman Mərkəzinin keçirdiyi voleybol yarışında məşqçi Fərhad Tarıverdiyevin, badminton yarışında isə Almaz Əfəndiyevanın yetirmələri qalib olublar. Yeni Azərbaycan Partiyası Yasamal rayon təşkilatının ulu öndər Heydər Əliyevin anadan olmasının 85 illiyinə həsr etdiyi futbol turnirində isə BDU-nun komandası birinci yeri tutaraq fəxri diplom və pul mükafatına layiq görülüb. 2009-cu il də universitetin idmançıları üçün uğurlu olub. Gənclər və İdman Nazirliyi ilə "Gənclər" Tələbə İdman Cəmiyyətləri Respublika Şurasının birgə keçirdiyi universiadada Məlahət Qəhrəmanovanın rəhbərliyi ilə BDU-nun oğlanlardan və qızlardan ibarət həndbol komandaları, baş müəllim Almaz Əfəndiyevanın məşqçisi olduğu qızlardan ibarət badminton komandası birinci, Mübariz Bağırovun və Tərifə Bayramovanın yetirmələri olan basketbolçu, stolüstü tennisçi qızlarımız isə ikinci yerləri tutublar.

2008-2009-cu tədris ilindən universitetin bütün fakültələrində "Bolonya sistemi" tətbiq olunur. Tələbələr dərslərdən sonra da kafedranın nəzdində fəaliyyət göstərən idman bölmələrində böyük həvəslə məşq edirdilər.

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsinin müxtəlif idman növləri üzrə müəllim və tələbələr arasında keçirdiyi yarışlarda da BDU-nun komandaları mütəmadi olaraq qaliblər sırasında yer alıb", - deyə Akif müəllim qeyd etdi.

## "İdmançılarımız idman qurğularında həvəslə məşq edirlər"

Hər bir təhsil ocağında tələbələrin idmanla məşğul olması üçün yüksək səviyyəli mütəxəssis və mövcud şərait olmalıdır. Bakı Dövlət Universiteti ölkəmizdə idman infrastrukturu ilə fərqlənən ali təhsil ocaqlarından biridir. Məlumat aldıq ki, universitetdə Bədən Tərbiyəsi və İdman Kompleksi üç zaldan (onlardan biri idman oyunları üçündür, biri trenajor, digəri isə güləş zalıdır) və şahmat otağından ibarətdir. Universitetdə həmçinin üzgüçülük Kompleksi də mövcuddur. Burada eyni zamanda, kikboksinq zalı, stolüstü tennis zalı, trenajor otaqları, futbol stadionu və iki yardımçı futbol meydançası da tələbələrin ixtiyarındadır. Həmin idman zallarında idmanın ayrı-ayrı növləri üzrə məşqlər keçirilir. BDU-nun tələbələri 15 idman növü üzrə yarışlarda iştirak edirlər. Burada təhsil alan xarici tələbələr də universitetin idman həyatında yaxından iştirak edirlər.

Universitetin professor və müəllimləri üçün sadalanan idman növləri üzrə bölmələr yaradılıb. Universitetin idman infrastrukturu haqqında məlumat verərkən klub müdiri bildirdi ki, ali məktəbdə tələbələrin idmanla məşğul olmaları üçün bütün şərait yaradılıb. "Bakı Dövlət Universiteti özünün idman infrastrukturu ilə fərqlənən ali məktəblərdəndir. Universitetin müxtəlif fakültələrində təhsil alan tələbələr yarışlarda uğurla iştirak edir. Onlardan hansının fəal, hansının passiv olduğunu demək o qədər də düzgün olmazdı. Lakin şərti mənada hüquq, coğrafiya, ekologiya, beynəlxalq münasibətlər fakültələrini göstərə bilərəm. Çünki həmin fakültələrdən idmanla məşğul olanların sayı daha çoxdur və biz bir müddətdən sonra onlar arasında seçim edirik.

İdmançılarımız həvəslə məşq edirlər. Amma fürsətdən istifadə edib onu da deyim ki, mən daha çox açıq havada, xüsusilə də, dəniz sahilində məşqlərə üstünlük verirəm və tələbələrimizə də ən azı yay aylarında bunu məsləhət görürəm.

Universitetin rəhbərliyinin göstərdiyi diqqət və qayğı isə onların həvəslərini daha da artırır. Belə ki, BDU-nun rektoru, akademik Abel Məhərrəmov bəzən özü də müxtəlif yarışlarda iştirak edir ki, bu da məsuliyyətimizi ikiqat artırır. O, ildə bir neçə dəfə idmançı tələbələrlə görüşür. Həmin görüşlərdə Abel müəllim tələbələrin problemləri ilə maraqlanır, onlara öz məsləhətlərini verir. Onu da deyim ki, universitet rəhbərliyinin təşəbbüsü ilə bu yaxınlarda idmançılar üçün yeni soyunub-geyinmə, duş otaqları tikilib, istifadəyə verilib. Biz də bu etimadı doğrultmağa çalışırıq. Həmçinin Təhsil Nazirliyi, AFFA kollektivi də bizə böyük köməkliklər edir"- deyə müsahibimiz əlavə etdi.

## Unikal velosiped muzeyi

Akif müəllim onu da bildirdi ki, universitetdə beynəlxalq miqyaslı unikal Velosiped və Velosiped İdmanı Muzeyi fəaliyyət göstərir. Bu muzeyin əsasını isə velosiped idmanı üzrə tanınmış mütəxəssis olan Ələddin Şabanov qoyub. O, BDU-da professor əvəzi vəzifəsində çalışıb, pedoqoji elmlər namizədi, idman ustası, Azərbaycan Velosiped İdmanı Federasiyasının vitse-prezidenti, Milli Olimpiya Komitəsinin üzvü olub. Bir çox beynəlxalq yarışlarda, o cümlədən dünya və Avropa çempionatlarında muzeyin səyyar sərgilərini nümayiş etdirib. Ələddin müəllim velosiped yarışlarında dünya, Avropa çempionatlarında, super velomarafonlarda 50-dən artıq ölkələrdə Azərbaycanı təmsil edib. 1997-ci ildə "Ekoloji təmizlik uğrunda mübarizə" adlı marafonda Çernobıl kimi faciələrin qarşısını almaq məqsədi uğrunda mübarizədə Avropanın 27 ölkəsini, 144 şəhərini 6 ay müddətində qət edərək Vatikanda Roma papası Yohan Pavel II tərəfindən mükafatlandırılıb. Velosiped muzeyinin ekspozisiyaları günü-gündən artır, yeni materiallarla zənginləşir. Muzeyin rəy kitablarında dünya və Olimpiya çempionlarının, beynəlxalq velosiped idmanı üzrə rəhbərlərin, universitetə gələn qonaqların və bir çox şəxsiyyətlərin ürək sözləri yazılıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev çıxışlarında dəfələrlə vurğulayıb ki, idmanın inkişafı ölkəmizin ümumi maraqlarına xidmət edir və idmançılarımızın beynəlxalq yarışlarda qazandığı hər bir qələbə Azərbaycanın dünyada daha yaxşı tanınmasına böyük təkandır. Bu baxımdan, qocaman ali təhsil ocağı olan BDU ölkədə idmanın yüksək səviyyədə inkişaf etməsində, tədrisində və təbliğində üzərinə düşən vəzifələri layiqincə yerinə yetirir.

BDU-nun idman həyatı, həqiqətən də, çox inkişaf edib. Üzgüçülük kompleksi, kikboksinq, stolüstü tennis zalları, trenajor otaqları, stadion və s. günümüzün müasir tələbləri səviyyəsində qurulub. Yaradılmış bütün bu şəraitdən isə təkcə BDU tələbələri deyil, öz sağlamlığına biganə qalmayan universitetin bütün kollektivi yararlanır.

***Azər Əlizadə,***
***Kənan Novruzov***

*Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə çap edilir.*

## Şahmat

***Azərbaycan Şahmat Federasiyasının vitse-prezidenti, "Odlar Yurdu" şahmat klubunun rəhbəri Mahir Məmmədov Antalyada keçirilən Avropa Çempionlar Kubokunda gümüş və bürünc medallar qazanan şahmatçılarımızla görüşüb.***

# Vitse-prezident Avropa Çempionlar Kubokunun qalibləri ilə görüşüb

AŞF rəsmisi son illər "SOCAR Azerbaijan" klubunun bu turnirdə uğurla çıxış etdiyini, iki dəfə Avropa kubokunu qazandığını xatırladıb. Cari ildə "Odlar Yurdu" klubunun da yüksək nəticə göstərdiyini deyən federasiyanın vitse-prezidenti şahmatçıların göstərilən etimadı doğrultduqlarını bildirib: "Azərbaycanın hər iki klubu mötəbər yarışda yüksək nəticə ilə yadda qaldı. Kişi və qadın şahmatçılarımız son tura qədər liderlər qrupunda qərarlaşmaqla yanaşı, güclü idmançılarla uğurla mübarizə apardılar. "Odlar Yurdu" klubu yüksək nəticə ilə şahmat həvəskarlarını sevindirdi. Hər iki komandamız turnirdə çempion olmağa yaxın idi. Şahmatçılarımız Avropa Kubokunda əsl komanda mübarizəsi nümayiş etdirdilər".

Mahir Məmmədov Avropa Kubokunda gümüş və bürünc medal qazanan şahmatçıları və kapitanları təbrik edib, onlara gələcək yarışlarda uğurlar arzulayıb".

Tədbirdə Türkiyədə qazanılan nəticənin gələn həftə Yunanıstanda start götürəcək komandalar arasında Avropa çempionatında şahmatçılarımıza stimul olacağı vurğulanıb.

Kişi və qadın şahmatçılardan ibarət "Odlar Yurdu" klubunun üzvləri yarışla bağlı təəssüratlarını bölüşüb, göstərilən diqqət və qayğıya görə minnətdarlıqlarını bildiriblər.

## Xəbərlər

### Azərbaycan Kuboku turnirinə start verilib

Oktyabrın 24-də Gənclər və İdman Nazirliyinin, Azərbaycan Stolüstü Tennis Federasiyasının təşkilatçılığı ilə gənclər və yeniyetmələr arasında stolüstü tennis üzrə Azərbaycan Kuboku turnirinə start verilib.

Şəxsi və komanda xarakterli yarışlarda Bakı, Sumqayıt, Şabran, Gədəbəy və Şəkidən ümumilikdə 100-ə yaxın idmançı iştirak edir. Turnirdə yeniyetmələrdən ibarət 19 və gənclərin təmsil olunduğu 8 komanda mübarizəyə qoşulub. Bu gün yarışa yekun vurulacaq.

### Şirazda Baş Assambleya təşkil olunub

İranın Şiraz şəhərində Beynəlxalq Dağçılıq Federasiyasının (UIAA) növbəti Baş Assambleyası keçirilib.

Baş Assambleyada ölkəmizi federasiyanın prezidenti Firdovsi Əliyev təmsil edib. Tədbirdə Baş Assambleyanın gündəliyinə daxil olan məsələlərlə əlaqədar müzakirələr aparılıb, rəy və təkliflər dinlənilib. Baş Assambleya çərçivəsində, həmçinin ikitərəfli və çoxtərəfli görüşlər keçirilib.

### Hövsanda paytaxt birinciliyi

Bakı Şəhər Gənclər və İdman Baş İdarəsi (BŞGİBİ) tərəfindən Hövsan Olimpiya İdman Mərkəzində gənclər arasında sambo üzrə açıq paytaxt birinciliyi keçirilib. Yarışda 107 idmançı birincilik uğrunda mübarizə aparıb. Gərgin idman mübarizəsi şəraitində keçən birincilikdə Nicat Məmmədov (48 kq), Nicat Xankişiyev (52 kq), Ziya Əliyev (62 kq), Şirzad Sayadzadə (68 kq), Hikmət Əkbərov (74 kq), Əli Nəzərli (82 kq), Hüseynəli İskəndərov (90 kq), Elvin Abbasov (100 kq) və Bayram Əhmədov (100 kq-dan yuxarı) fəxri kürsünün ən yüksək pilləsinə qalxıblar.

Mükafatçılar Baş İdarə tərəfindən müvafiq dərəcəli diplomlar və xatirə hədiyyələri ilə təltif olunublar.

## "Neftçi idman klubu" İB

### Qraplinq

Bakı İdman Sarayında kişilər və qadınlar arasında qraplinq və qraplinq-gi üzrə sayca 10-cu dünya çempionatı keçirilib. 33 ölkədən 550 idmançının qatıldığı yarışda atletlər uşaqlar, yeniyetmələr, gənclər və veteranlar kateqoriyalarında mübarizə aparıblar.

Çempionatda klubumuzun yetirmələrindən dördü medala yiyələnib. İdmançılarımızdan 92 kq çəkidə çıxış edən Həzi Həsənov veteranlar arasında dünya çempionu adına layiq görülüb. Əsgər Eldarov (92 kq) gənclər, Məhəmməd Papaqov (42 kq) və Rəvan İsgəndərli (85 kq) isə yeniyetmələr arasında 3-cü yeri tutublar.

### Muay-tay

Gürcüstanın Tbilisi şəhərində muay-tay döyüş növü üzrə Avropa kəməri uğrunda yarış keçirilib. Turnirdə Azərbaycan, Gürcüstan, Rusiya, Türkiyə, Özbəkistan və Ermənistan idmançıları mübarizə aparıblar.



"Neftçi İdman Klubu" da yarışa qatılıb və komandamız ((Rahib İbrahimov (48 kq), Rəşad Qəhrəmanov (56 kq), Məhəmməd Musayev (60 kq), Elcan Qasımov (65 kq), Heydər Qasımov (70 kq), Nicat Heydərov (75 kq), Mehralı Qasımov (+91 kq)) Avropa kəmərinə sahib çıxıblar.

Eyni məkanda təşkil olunan Avropa çempionatında isə idmançılarımız 2 qızıl və 5 gümüş medala yiyələniblər.

### Futbol

Futbol üzrə Azərbaycan I Divizionunda IV turun oyunları keçirilib.

7 xalla turnir cədvəlinə liderlik edən "Qaradağ-Lökbatan" komandası "Mil-Muğan"ın qonağı olub. Heydər Əliyev adına İmişli şəhər stadionunda keçirilən görüşdə qapılara 6 top vurulub. 16-cı dəqiqədə komandamız Sabir Allahquliyevin qolu ilə önə keçib. 32-ci dəqiqədə Məhəmməd Xəlilov hesab arasındakı fərqi ikiyə çatdırıb. "Mil-Muğan" 44-cü dəqiqədə vurulan qollardan birinin əvəzini çıxıb. Oyunun ikinci hissəsində hücumlarını davam etdirən "Qaradağ Lökbatan" 49-cu dəqiqədə Natiq Kəriminin sayəsində daha bir qola imza atıb. 69-cu dəqiqədə Məhəmməd Xəlilov özünün ikinci, komandasının isə dördüncü qolunu vurub. Yerli komanda 78-ci dəqiqədə penalti zərbəsini dəqiq yerinə yetirib və ikinci dəfə fərqlənib. Beləliklə, matçda 4:2 hesabı ilə qalib gələn "Qaradağ Lökbatan" komandası xallarının sayını 10-a çatdırıb və turnir cədvəlində liderliyini davam etdirir.

### Kikboksinq

Kiçikyaşlı yeniyetmələr, yeniyetmələr və gənclər arasında kikboksinq üzrə Bakı birinciliyinə yekun vurulub. "Sərhədçi" İdman Olimpiya Mərkəzində təşkil olunan yarışda 40 komandanın tərkibində 560 idmançı qüvvəsini sınayıb.

Klubumuzun kiçikyaşlı yeniyetmə kikboksçularından Elfan Əzizli (27 kq), Yusif Dadaşov (33 kq) və Əli Mirzəyev (36 kq) rəqib tanımayaraq açıq paytaxt birinciliyinin qalibi adını qazanıblar. Yalnız finalda məğlub olan Əlihüseyn Əliyev (36 kq) və Əli Qasımov (46 kq) isə gümüş medala layiq görülüblər.

Qeyd edək ki, bu yaş qrupunda kikboksçularımız komanda hesabında birinci yeri tutublar.

Yeniyetmələrin yarışında 60 kq çəki dərəcəsində klubumuzu təmsil edən Fərid İlyasov və Sehran Baxşıyev fəxri kürsünün ən yüksək pilləsinə qalxıblar.

Gənclər arasında mübarizə aparan idmançılarımızdan isə Hüseyn Əliyev və İsgəndər Hacıyev birinciliyi bürünc medalla tərk ediblər.

***"Neftçi İdman Klubu"İctimai Birliyinin mətbuat xidməti***

## Futbol

# "Qarabağ" daha böyük qələbələrə layiqdir

***UEFA Çempionlar Liqasında (ÇL) qrup mərhələsinin ilk dövrəsi geridə qalıb. Ölkəmizi mötəbər turnirdə təmsil edən "Qarabağ" III tur çərçivəsində evdə İspaniyanın "Atletiko" klubu ilə münasibətlərinə aydınlıq gətirib. Maraqlı mübarizə şəraitində keçən matçda hesab açılmayıb. Düzdür, "Qarabağ" "Atletiko" klubu ilə oyuna psixoloji cəhətdən yaxşı hazırlaşmışdı. Futbolçuların üz ifadələrindən də bunu görmək olardı. Onlar çox rahat, özlərinə əmin şəkildə meydana çıxmışdılar və istədikləri nəticəni qazandılar. Amma psixoloji hazırlıq daha çox olsa idi, "Qarabağ" qalib də gələ bilərdi. Sanki komandamız qələbəyə yox, heç-heçə üçün köklənmişdi. Futbolçularımızın doğma azarkeşlər önündə qazandıqları xala sevinməsi bunu sübut edir.***

### Qrupda ilk xal

Məlumdur ki, C qrupunun qələbə qazana bilməyən iki klubu aşağı pillələrdən uzaqlaşmaq üçün mübarizə aparıb. Görüşdə hesab açılmayıb. Hər iki tərəfin qol vurmaq üçün şansları olsa da, buna nail ola bilməyiblər.

Dino Ndlovu matçın 75-ci dəqiqəsində ikinci sarı vərəqə alaraq oyunu vaxtından əvvəl tərk etməli olub. "Qarabağ" son 15 dəqiqəni azlıqda keçirsə də, yekunda ilk xalını qazanıb. Nəticədə, "Qarabağ" ÇL-in qrup oyunlarında xal qazanan ilk Azərbaycan klubu olub.

### "Qodinin Ndlovunu yıxdığı açıq-aydın görünür"

Matçın maraqlı məqamlarından biri oyunun 75-ci dəqiqəsinə təsadüf edib. Qonaqların müdafiəçisi Dieqo Qodin cərimə meydançasında "Qarabağ"ın futbolçusu Dino Ndlovunu yıxsa da, matçın fransalı baş hakimi bunu simulyasiya kimi qiymətləndirərək hücumçunu ikinci sarı vərəqə ilə meydandan qovub. Dino Ndlovuya göstərilən qırmızı vərəqəyə gəlincə, bu epizodu penalti kimi dəyərələndirmək olar. Ən azı simulyasiya yox idi. Yəni, Dino Ndlovu toxunuşdan sonra yıxılmışdı.

Dino Ndlovunun haqsız yerə meydandan qovulmasına İspaniya mətbuatı da biganə qalmayıb. Sözügedən epizod haqda "Marca" nəşrinə açıqlama verən keçmiş ispaniyalı hakim Anduxar Oliver görüşün hakiminin yalnış qərar qəbul etdiyini deyib: "İlk baxışda oyunçunun hovuza tullanırmış kimi yıxıldığı zənn edilir. Ancaq epizodun təkrarına baxdıqda Qodinin Ndlovunu yıxdığı açıq-aydın görünür. Fransalı hakim cəriməni gözdən qaçırdı və matçın taleyini dəyişdi".



### Heç-heçəyə aparan bəzi məqamlar

"Qarabağ" klubu meydanı 3 xalla tərk edə bilərdi. Bilmirəm, bunu təcrübəsizlik adlandırım, yoxsa futbolçuların qol duyumunun zəifliyi...Bununla bağlı bəzi məqamlara aydınlıq gətirmək istərdim.

Birinci hissədə "Qarabağ" daha çox hücum edirdi, amma real qol vəziyyəti yarada bilmirdi. Şübhəsiz ki, künc zərbələri rəqib üçün həmişə arzuolunmaz qol vəziyyəti sayılır. Amma təmsilçilərimiz belə vəziyyətlərdən lazımınca istifadə etmirdilər. Bu zərbəni onlar ötürmə ilə başlayırdılar. Əgər künc zərbəsidirsə, topu qapı istiqamətinə qaldırmaqla, hər hansı futbolçumuzu zərbə mövqeyinə çıxarmaq olardı. Bundan başqa, topun cərimə meydançasına ötürülməsi rəqibi təzyiqdə saxlayır. Yoxsa geriyə ötürmə, sonra da topun itirilməsi... Qapı qarşısına ötürülən top nə qədər pis olsa da, geriyə ötürmə verib itirməkdən daha yaxşı olardı.

Matçın son dəqiqələrində Tarik Elyunussinin əlinə düşən qol fürsətini lazımınca dəyərləndirmək olardı. Norveçli futbolçunun yerinə başqası olsaydı, həmin qol vəziyyətini belə dəyərdəndirərdi: topu saxlayar, müdafiəçini keçməklə qapıya daha yaxşı zərbə endirərdi. Bundan başqa, Mahir Mədətovun "xəsisliyini" də qeyd etmək olar. Bəzi məqamlarda bu futbolçunun topu özündə çox saxlaması, yaxşı mövqedə olan futbolçuya ötürməməsi kəsərli hücumların qurulmasına mane olurdu...



Oyundan əvvəl azarkeşlərimiz "Atletiko" ilə matçda 1 xalın qazanmasını sensassiya kimi dəyərləndirirdilər. Amma futbolçularımızın İspaniya təmsilçisinə qarşı mübariz oyun göstərməsi hamını yaxşı mənada təəccübləndirdi. Onda ortaya belə bir sual çıxır: bəzi məqamlarda ispanlardan yaxşı çıxış edən "Qarabağ" heç-heçəyə niyə sevinməlidir? "Qarabağ" daha böyük qələbələrə layiqdir. Bayaq dediyim nüanslardan lazımınca istifadə edə bilsəydik... Bəlkə də təmsilçimizin matçdan əvvəl rəqibi çox "şişirtməsi" özünü biruzə verdi. Belə oyunlarda futbolçulardan yüksək psixoloji hazırlıq və soyuqqanlılıq tələb olunur.

### Ölkəmizdə idmana qayğı yüksək səviyyədədir

Bu qayğının nəticəsidir ki, beynəlxalq miqyaslı yarışların paytaxtı məhz Bakı seçilir. Azərbaycanda bütün idman növlərinə olduğu kimi, futbola da diqqət kifayət qədərdir. Xatırladaq ki, 2019-cu ildə UEFA Avropa Liqasının finalı, EURO-2020-nin final mərhələnin 4 oyunu məhz Bakıda təşkil olunacaq.

SOCAR-ın futbolumuzun inkişafına ayırdığı sərmayə bəlkə də, heç bir şirkət tərəfindən həyata keçirilmir. Belə ki, respublikamızda futbolun inkişafı üçün hər cür şərait var. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə "Qarabağ" klubunun UEFA Çempionlar Liqasının qrup mərhələsinə vəsiqə qazanması ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan komandaya 2 milyon manat ayrılması dediklərimizin əyani sübutudur. Təəssüf ki, beynəlxalq miqyasda futbol yarışlarında hələ ki, heç-heçəyə sevinməli oluruq.

Heç kimə sirr deyil ki, hazırda futbol klublarımızın əksəriyyətində legionerlər üstünlük təşkil edir. "Qarabağ" klubunda da həmçinin. Legionerlərin təcrübəsindən yararlanmaq lazımdır. Amma gəlin görək, klublarımıza dəvət olunan legionerlərin hamısı yüksək səviyyəli futbolçulardırmı? Axı bu oyunçulara kifayət qədər pul ödənilir, bütün problemləri həll olunur. Bəs onda niyə qələbə qazanmayaq?

Hazırda Avropanın və Azərbaycanın futbol ictimaiyyətinin diqqət mərkəzində olan "Qarabağ"ın hər bir oyunu böyük coşğu ilə qarşılanır. Komandamızın keçirdiyi görüşlərdə tribunalarda kifayət qədər azarkeş toplanır. Hamı - azarkeşlər, adi vətəndaşlar da işğal atında olan Ağdam təmsilçisini ürəkdən dəstəkləyir. Bu dəstək, həm də, yaralı yerimiz olan Qarabağ adı ilə bağlıdır. Hamı fikirləşir ki, "Qarabağ"ın stadionda qazandığı qələbə, Qarabağdakı zəfərlərimiz üçün körpü rolunu oynayacaq. Azərbacan xalqı da, "Qarabağ" da qələbə çalmağa layiqdir.

***Rahib Səmədov***

Olimpiya dünyası

Baş redaktor:
M.Q.Fərzəliyev

Qəzet Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı üzrə Bakı Bölgə Şöbəsində qeydiyyatdan keçib. Qeydiyyat N R-168

AZƏRBAYCAN BEYNƏLXALQ BANKI
H/H AZ79IBAZ38090019449333849204
M/H 0137010002944
KOD 805250
VÖEN 1500306421

Təqdim olunmuş materiallar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.
Redaksiya reklam materiallarının məzmununa görə məsuliyyət daşımır.

Qiyməti 20 qəpikdir.
Qəzet "Olimpiya dünyası"nın kompüter mərkəzində yığılır, səhifələnir və "CBS" mətbəəsində (Şərifzadə küçəsi, 3. tel: 447-75-05(04)) çərşənbə axşamı və cümə günləri 6150 nüsxə ilə çap edilir.

DİQQƏT!
Qəzetimizin materiallarından istifadə edərkən "Olimpiya dünyası"na istinad etmək zəruridir.

*E-mail:*
olimpiya_dunyasi@mail.ru
*Ünvan:*
Bakı şəhəri,
2-ci sülh döngəsi, 2a.
*Tel.:* 564-90-49; 564-90-54; 564-74-19